# Sərhəd qoşunları haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

M a d d ə 1. **Azərbaycan Respublikasının sərhəd qoşunları**

Azərbaycan Respublikasının sərhəd qoşunları (bundan sonra-sərhəd qoşunları) Azərbaycan Respublikasının Dövlət sərhədinin (bundan sonra—Dövlət sərhədi) mühafizəsini və toxunulmazlığını təmin edir.

M a d d ə 2. **Sərhəd qoşunları haqqında qanunvericilik**

Sərhəd qoşunları haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. [1]

Sərhəd qoşunları öz fəaliyyətində Azərbaycan Respublikası ümumqoşun nizamnamələrini əsas tutur. Bu zaman Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ümumqoşun nizamnamələrinin qarnizon xidməti üzrə müddəaları və sərhəd qoşunlarının təyinatı ilə əlaqədar olmayan digər müddəaları tətbiq edilmir (hərbi peşə təhsili məktəblərindən başqa).

M a d d ə 3. **Sərhəd qoşunlarının fəaliyyətinin əsas prinsipləri**

Sərhəd qoşunlarının fəaliyyəti qanunçuluq, aşkarlıq, insan hüquqları və azadlıqlarına riayət edilməsi, dövlət orqanları, ictimai birliklər, əmək kollektivləri və əhali ilə qarşılıqlı əlaqə, Silahlı Qüvvələr quruculuğunun təşkilat prinsipləri əsasında həyata keçirilir.

M a d d ə 4. **Sərhəd qoşunlarının vəzifələri**

Sərhəd qoşunları:

1) Dövlət sərhədini qanunla müəyyənləşdirilmiş qaydada mühafizə edir;

2) Dövlət sərhədini qanunsuz olaraq dəyişdirmək üçün göstərilən hər cür, cəhdlərin qarşısını alır;

3) Azərbaycan Respublikasının dövlət sərhədində real və potensial təhdidləri dəf edir, sərhədboyu zonada əhalini, mülkiyyəti bu cür əməllərdən qoruyur, onların qarşısını alır; [2]

4) şəxslərin və nəqliyyat vasitələrinin qanunsuz üsullarla Dövlət sərhədini keçməsinin qarşısını alır və buna yol vermir;

5) lazımi qaydada rəsmiləşdirilmiş sənədlər olduqda şəxsləri, nəqliyyat vasitələrini, yükləri və başqa əmlakı müəyyən olunmuş məntəqələrdə Dövlət sərhədindən buraxır;

6) narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın, odlu silah və döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən materialların və avadanlıqların, eləcə də qanunvericiliklə nəzərdə tutulmuş digər əşyaların, habelə Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrindən kənarda əmlakın qanunsuz olaraq Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsinin qanunvericiliklə müəyyən edilmiş qaydada qarşısını alır; [3]

7) əz səlahiyyəti həddində qanunla müəyyən edilmiş Dövlət sərhəd rejiminə, sərhədboyu rejimə (o cümlədən sərhəd sularında) və Dövlət sərhədinin buraxılış məntəqələrindəki rejimə əməl olunmasını təmin edir; [4]

8) Azərbaycan Respublikasının Dövlət sərhədinin mühafizəsi ilə əlaqədar səlahiyyətləri daxilində əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini həyata keçirir,

qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda cinayət işləri üzrə təhqiqat aparır, inzibati xətalar haqqında işlər üzrə icraatı həyata keçirir; [5]

9) Azərbaycan Respublikasının ərazi və daxili sərhədboyu sularında üzərkən və ya olarkən hərbi və qeyri-hərbi gəmilərin müəyyən edilmiş rejimə əməl etməsi üzərində nəzarəti həyata keçirir;

10) xidmət rayonlarında Azərbaycan Respublikasının xüsusi vəkil edilmiş dövlət orqanlarına təbii ehtiyatların qorunması, ov qaydalarına əməl edilməsi üzərində nəzarət və təbii mühiti çirklənməkdən mühafizə işində lazımi kömək göstərir.

Yuxarıda göstərilənlərdən başqa sərhəd qoşunları:

1) hava hücumundan müdafiə və hərbi dəniz qüvvələri, Dövlət sərhədində xüsusi nəzarəti həyata keçirən dövlət orqanları tərəfindən Dövlət sərhədinin mühafizəsi ilə əlaqədar vəzifələrin yerinə yetirilməsinə kömək göstərir;

2) Dövlət sərhədinin mühafizə olunmasında dövlət orqanları, müəssisələri, idarələri və təşkilatları ilə qarşılıqlı fəaliyyət göstərir və onların fəaliyyətini əlaqələndirir;

3) Azərbaycan Respublikasının təhlükəsizliyini təmin edən digər qüvvələr tərəfindən Dövlət sərhədinin mühafizəsi, Dövlət sərhədində şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati əhəmiyyət kəsb edən mühüm mənafelərinin xarici və daxili təhlükələrdən qorunması ilə əlaqədar vəzifələrin yerinə yetirilməsinə kömək göstərir.

Dövlət sərhədinə, sərhəd çaylarına, göllərinə, digər sututarlara, dəniz sahilinə və ya Dövlət sərhədinin buraxılış məntəqəsinə bitişik rayonlarda və şəhərlərdə fövqəladə vəziyyətin hüquqi rejimi tətbiq edildikdə sərhəd qoşunlarına müstəsna olaraq Dövlət sərhədinin mühafizəsi sahəsində qanunla müəyyən edilmiş qaydada digər vəzifələr həvalə edilə bilər.

Azərbaycan Respublikasının müdafiəsi sahəsində sərhəd qoşunlarının silahlı döyüş vasitələrinin tətbiqi ilə əlaqədar vəzifələri onların xüsusi hazırlığına, silah və hərbi texnika ilə təminatına, təşkilat-ştat strukturuna uyğun olaraq Azərbaycan Respublikasının hərbi doktrinası əsasında Azərbaycan Respublikasının Ali baş komandanı tərəfindən müəyyən edilir.

Sərhəd qoşunlarının onların təyinatı ilə əlaqədar olmayan vəzifələrin yerinə yetirilməsinə cəlb edilməsinə yalnız qanunda nəzərdə tutulmuş hallarda yol verilir və onlardan hər hansı başqa məqsədlə istifadə olunması qadağandır. Zəruri hallarda sərhəd qoşunları Azərbaycan Respublikası Ali baş komandanının əmri ilə Azərbaycan Respublikasının müdafiəsi işinə cəlb oluna bilər.

M a d d ə 5. **Sərhəd qoşunlarının hüquqları**

Dövlət sərhədinin mühafizəsini həyata keçirərkən sərhəd qoşunları aşağıdakı hüquqlara malikdir:

1) xidməti vəzifələri icra edərkən sərhədyanı rayonların ərazisində maneəsiz hərəkət etmək, sənədləri, nəqliyyat vasitələrini, onlarda daşınan yükləri və digər əmlakı yoxlamaq;

2) Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi ilə əlaqədar səlahiyyətləri daxilində əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirləri planlaşdırmaq, həyata keçirmək və bununla bağlı məsələləri həll etmək; [6]

3) Dövlət sərhədindən keçən şəxslərin Azərbaycan Respublikasına gəlmək və ya Azərbaycan Respublikasından getmək hüququna dair sənədlərini yoxlamaq, həmin sənədlərdə müvafiq qeydlər etmək və zərurət olduqda bunları müvəqqəti saxlamaq;

Azərbaycan Respublikasına gəlmək və ya Azərbaycan Respublikasından getmək hüququna dair etibarlı sənədləri olmayan şəxsləri onlar Dövlət sərhədindən keçmək hüququna dair sənədləri lazımınca rəsmiləşdirənədək və ya Azərbaycan Respublikası vətəndaşlarının xaricdə olduqları dövrdə öz sənədlərini itirməsi halları araşdırılanadək və onların şəxsiyyəti müəyyən edilənədək Dövlət sərhədindən buraxmamaq;

4) Dövlət sərhədindən keçən şəxslərin yüklərini və başqa əşyalarını müəyyən edilmiş

qaydada müstəqil surətdə və ya gömrük idarələri ilə birlikdə yoxlamaq, zəruri hallarda onları yoxlanış üçün saxlamaq və ya qanunla müəyyən edilmiş qaydada almaq;

5) Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasından aparılması qadağan edilmiş materialları, əşyaları və sənədləri, habelə qaçaq malı Dövlət sərhədindən keçirməyə cəhd göstərmiş şəxslərin Azərbaycan Respublikasına və ya Azərbaycan Respublikasından buraxılması məsələsini yol verilmiş hüquq pozuntusu hallarını və xarakterini nəzərə almaqla həll etmək;

6) Dövlət sərhədindən keçən xarici nəqliyyat vasitələrini və Azərbaycan Respublikasına məxsus nəqliyyat vasitələrini, bu vasitələrlə daşınan yükləri müəyyən edilmiş qaydada yoxlamaq; zəruri hallarda sərhədçi dəstələri ilə nəqliyyat vasitələrini müşayiət etmək;

7) xaricə gedən nəqliyyat vasitələrinin Dövlət sərhədinin buraxılış məntəqələrində dayanma (dayanacaq) yerlərini və müddətini əlaqədar müəssisələr, idarələr və təşkilatlar ilə birlikdə müəyyən etmək;

8) Azərbaycan Respublikasının ərazi və daxili sərhədboyu sularında üzərkən və olarkən, habelə Azərbaycan Respublikasının limanlarında dayanacaq vaxtı hüquq pozuntusuna yol vermiş xarici gəmilərin heyət üzvlərinin və gəmilərdə olan digər şəxslərin sahilə çıxmasına və sahildə olmasına yol verməmək;

9) Azərbaycan Respublikasının beynəlxalq və dövlətlərarası müqavilələrinə müvafiq surətdə aparılan tikintilərdə, ümumdövlət və müdafiə əhəmiyyətli tikintilərdə görülən işlər, təbii fəlakətlər, xüsusilə təhlükəli yoluxucu xəstəliklər ilə əlaqədar tədbirlər istisna edilməklə, sərhədboyu zolaqda müxtəlif işlərin görülməsini şəraitin tələb etdiyi hallarda məhdudlaşdırmaq;

10) Azərbaycan Respublikası ərazisinə basqınların dəf edilməsi, Dövlət sərhədində müxtəlif fitnələrin qarşısının alınması, Dövlət sərhədini pozanların axtarılması və tutulması zamanı, habelə şəraitin tələb etdiyi digər zəruri hallarda mülkiyyət formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatların elektrik, rabitə və nəqliyyat vasitələrindən (xarici dövlətlərin diplomatik və digər nümayəndəliklərinə, beynəlxalq təşkilatlara məxsus vasitələrdən başqa), o cümlədən ictimai birliklərə və vətəndaşlara məxsus nəqliyyat vasitələrindən istifadə etmək;

11) vətəndaşlardan və vəzifəli şəxslərdən ictimai qaydalara əməl olunmasını tələb etmək; onların vəzifələrinin icrasına mane olan hüquq pozuntularının və digər hərəkətlərin qarşısını almaq;

12) sərhədyanı rayonların ərazisində dövlət sərhədini pozanların axtarılması və tutulması, respublika ərazisində isə onların təqib olunması ilə əlaqədar tədbirlər görərkən mülkiyyət formasından asılı olmayaraq (diplomatik toxunulmazlığa malik olanlardan başqa) müəssisə, idarə və təşkilatların yerləşdiyi əraziyə və binaya qanunvericiliklə müəyyən edilmiş qaydada daxil olmaq; [7]

13) sərhədyanı rayonların ərazisində dövlət sərhədini pozanların axtarılması və tutulması ilə əlaqədar tədbirlərin görülməsi məqsədi ilə küçələrdə və yaşayış məntəqəsindən kənardakı yollarda nəqliyyat vasitələrinin və piyadaların hərəkətini müvəqqəti dayandırmaq və ya məhdudlaşdırmaq;

14) xidməti vəzifələrin icrası üçün zəruri məlumatı mülkiyyət formasından asılı olmayaraq (diplomatik toxunulmazlığa malik olanlardan başqa) müəssisə, idarə və təşkilatlardan əvəzsiz almaq (bu cür məlumatın əldə olunmasının qanunla müəyyən edilmiş digər qaydaları mövcud olan hallardan başqa);

15) Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsində fərqlənmiş vətəndaşları mükafatlandırmaq;

16) Azərbaycan Respublikasının qanunlarına, dövlətlərarası müqavilələrinə, habelə hamılıqla qəbul olunmuş beynəlxalq hüquq prinsiplərinə və normalarına müvafiq surətdə

Dövlət sərhədinin qorunması sahəsində başqa tədbirləri həyata keçirmək.

M a d d ə 6. **Sərhəd qoşunlarının hüquq və vəzifələrinin həyata keçirilməsi**

Sərhəd qoşunlarının hüquq və vəzifələri qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir. [8]

M a d d ə 7. **Sərhəd qoşunlarının fəaliyyəti və vətəndaşların hüquqları**

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallardan və qaydalardan başqa, vətəndaşların hüquq və azadlıqlarının sərhəd qoşunları tərəfindən məhdudlaşdırılmasına yol verilmir.

Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının vətəndaşları hüquq və azadlıqlarının məhdudlaşdırılması barədə sərhəd qoşunlarından məlumat tələb etmək hüququna malikdirlər.

Vətəndaşların hüquq və azadlıqları pozulduqda sərhəd qoşunlarının hərəkətlərindən qanunla müəyyən edilmiş qaydada şikayət edilə bilər.

M a d d ə 8. **Dövlət sərhədinin mühafizəsi ilə əlaqədar inzibati xətalar barədə işlər üzrə icraat**

Sərhəd qoşunlarının orqanları (vəzifəli şəxsləri) Azərbaycan Respublikasının inzibati qanunvericiliyi ilə nəzərdə tutulmuş səlahiyyətlər həddində Dövlət sərhəd rejiminə, sərhədboyu rejimə (o cümlədən sərhəd sularında) və Dövlət sərhədinin buraxılış məntəqələrindəki rejimə qəsd edən inzibati xətalar barədə işlər üzrə icraatı həyata keçirir. [9]

M a d d ə 9. **Sərhəd qoşunlarının xarici dövlətlərin sərhəd mühafizə orqanları ilə əməkdaşlığı**

Sərhəd qoşunları xarici dövlətlərin sərhəd mühafizə orqanları və digər orqanları ilə Dövlət sərhədinin mühafizəsi məsələləri üzrə Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən qaydada ikitərəfli münasibətlər əsasında əməkdaşlıq edir.

Sərhəd qoşunları Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə müvafiq olaraq yaradılan sərhəd mühafizəsi üzrə çoxtərəfli əlaqələndirmə orqanlarının fəaliyyətində iştirak edir.

M a d d ə 10. **Dövlət orqanları və onların vəzifəli şəxsləri tərəfindən sərhəd qoşunlarına kömək göstərilməsi**

Dövlət orqanları və onların vəzifəli şəxsləri öz səlahiyyətləri daxilində:

1) sərhəd qoşunlarına onların qarşısında duran vəzifələrin yerinə yetirilməsində kömək göstərir və lazımi məlumatı əvəzsiz olaraq onlara təqdim edirlər;

2) sərhəd qoşunlarının hərbi qulluqçularına, fəhlə və qulluqçularına, onların ailə üzvlərinə, sərhəd qoşunlarının obyektlərinə münasibətdə hüquqa zidd hərəkətlərin yol verilməməsi üzrə tədbirlər görürlər;

3) sərhəd qoşunlarına kömək göstərilməsi işində vətəndaşların könüllü iştirakına yardım edir və şərait yaradırlar.

M a d d ə 11. **Sərhəd qoşunlarının bayraqları, rəmzləri, emblemləri, tanınma və fərqlənmə Nişanları**

Sərhəd qoşunlarının hərbi hissələri, bölmələri, sərhəd dəstələri, tədris məktəbləri, sərhəd gəmiləri (katerləri) döyüş bayraqlarına və rəmzlərə; təyyarələri, vertolyotları, avtonəqliyyat vasitələri və döyüş texnikası tanınma nişanlarına; hərbi qulluqçuları isə fərqlənmə nişanlarına və emblemlərə malikdirlər.

Bu maddənin birinci hissəsində göstərilən bayraqlar, rəmzlər, nişanlar və emblemlər

haqqında əsasnamələri müvafiq icra hakimiyyəti orqanı təsdiq edir. [10]

II f ə s i l
## SƏRHƏD QOŞUNLARININ FƏALİYYƏTİNİN TƏŞKİLİ VƏ İDARƏ OLUNMASI

M a d d ə 12. **Sərhəd qoşunlarının tərkibi və sayı**

Sərhəd qoşunları idarə orqanlarından, sərhəd dəstələrindən, "sərhəd nəzarəti hərbi hissələrindən, hərbi aviasiya hissələrindən, hərbi dəniz hissələrindən, sərhəd qoşunlarının fəaliyyətini təmin edən hərbi hissələr, idarələr və müəssisələrdən (təlim, rabitə, tikinti-istismar, maddi-texniki təminat, tibb, redaksiya-nəşriyyat, məlumat-hesablama, mədəni-maarif və s.) və xüsusi tədris məktəbləri və elmi tədqiqat idarələrindən ibarətdir.

Sərhəd qoşunlarının strukturu və say tərkibi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. [11]

M a d d ə 13. **(Çıxarılıb)** [12]

M a d d ə 14. **Sərhəd qoşunları komandanı**

Sərhəd qoşunlarına rəhbərliyi Sərhəd Qoşunlarının komandanı həyata keçirir. Sərhəd Qoşunlarının komandanının səlahiyyətləri qanunvericiliklə müəyyən edilir. [13]

M a d d ə 15. **(Çıxarılıb)** [14]

M a d d ə 16. **Sərhəd Qoşunları Baş qərargahı**

Sərhəd Qoşunlarının Baş qərargahı sərhəd qoşunlarının idarəetmə orqanı olub, Dövlət sərhədinin mühafizəsi üzrə xidməti-döyüş fəaliyyətini təşkil edir.

(çıxarılıb) [15]

M a d d ə 17. **(Çıxarılıb)** [16]

M a d d ə 18. **(Çıxarılıb)** [17]

M a d d ə 19. **Dövlət sərhədinin bilavasitə mühafizəsini həyata keçirən əsas bölmələr**

Sərhəd zastavası, sərhəd nəzarəti bölməsi, sərhəd gəmisi (kateri), radiotexniki post, sərhəd hava gəmisi, əməliyyat-axtarış orqanının bölməsi, sərhəd qoşunlarının sahə müvəkkili Dövlət sərhədinin bilavasitə mühafizəsini həyata keçirən əsas bölmələrdir və qanunla səlahiyyət verilmiş vəzifəli şəxslərdən başqa heç kim onların xidməti və təsərrüfat fəaliyyətinə qarışa bilməz. [18]

M a d d ə 20. **Sərhəd zastavası**

Sərhəd zastavası sərhəd dəstəsinin bölməsi olub ərazinin müəyyən sahəsində Dövlət sərhədinin bilavasitə mühafizəsini həyata keçirir.

Sərhəd zastavası ona təhkim edilmiş sahədə, öz səlahiyyətinə daxil olmayan məsələlərdən başqa, sərhəd qoşunlarını və Dövlət sərhədində Azərbaycan Respublikasının mənafeyini təmsil edir.

Sərhəd zastavasının rəisi sərhəd zastavasına təhkim edilmiş sahədə sərhəd qoşunlarının ali vəzifəli şəxsidir.

Sərhəd zastavasına sıra nömrəsi verilir.

M a d d ə 21. **Sərhəd nəzarəti bölməsi**

Sərhəd nəzarəti hərbi hissəsinin və ya sərhəd dəstəsinin sərhəd nəzarəti bölməsi Dövlət sərhədinin bir və ya bir neçə buraxılış məntəqəsində şəxslərin və nəqliyyat vasitələrinin

buraxılışını, habelə öz səlahiyyəti həddində ona təhkim edilmiş Dövlət sərhədinin buraxılış məntəqəsindəki (məntəqələrindəki) rejimə və Dövlət sərhədinin keçilməsi qaydalarına əməl edilməsinə nəzarəti həyata keçirir.

Sərhəd nəzarəti bölməsi ona təhkim edilmiş Dövlət sərhədinin buraxılış məntəqəsində xüsusi nəzarəti həyata keçirən orqanlarla (orqanların nümayəndələri ilə) onların səlahiyyətinə qarışmadan qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Sərhəd nəzarəti bölməsinə həqiqi ad verilir.

M a d d ə 22. **Sərhəd gəmisi (kateri)**

Sərhəd qoşunlarının tərkibinə daxil olan sərhəd gəmisi (kateri) Dövlət sərhədinin bilavasitə mühafizəsinə xidmət edir, müəyyən edilmiş bayraq, vımpel, bort fərqlənmə nişanı daşıyır, sərhəd qoşunlarında hərbi xidmətdə olan şəxsin komandanlığı altındadır və hərbi intizama tabe olan heyətə malikdir.

Sərhəd, gəmisi, ona məxsus olan uçan aparatlar və üzən vasitələr beynəlxalq hüquq normalarına müvafiq olaraq immunitetə malikdirlər.

Sərhəd gəmisinin (katerinin) komandiri, şəxsi heyəti xarici dövlətlər, hərbi və qeyri-hərbi gəmilər, habelə onların nümayəndələri ilə qarşılıqlı münasibətlərdə olarkən Azərbaycan Respublikasının qanunvericiliyini, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini, beynəlxalq hüququn prinsip və normalarını əsas tuturlar.

Komandirlərin vəzifəyə görə birinciliyini, zabitlərin, miçmanların hüquqi və sosial vəziyyətini, maddi-texniki təminat normalarını müəyyən etmək üçün sərhəd xidmətinin taktiki-texniki elementlərindən və həll edəcəyi vəzifələrdən asılı olaraq sərhəd gəmiləri (katerləri) siniflərə və dərəcələrə bölünür. Siniflərə və dərəcələrə Sərhəd Qoşunlarının komandanı tərəfindən təsdiq edilmiş sərhəd gəmilərinin təsnifatı haqqında Əsasnamə ilə müəyyən edilir. [19]

M a d d ə 23. **Radiotexniki post**

Radiotexniki post sərhəd qoşunlarının bölməsi olub ona təhkim edilmiş nəzarət zonasında radiotexniki və digər vasitələrlə Dövlət sərhədinin bilavasitə mühafizəsini həyata keçirir. [20]

Radiotexniki post öz nəzarət zonasında sərhəd qoşunlarını və Dövlət sərhədində Azərbaycan Respublikasının mənafeyini təmsil edir.

Radiotexniki posta sıra nömrəsi verilir.

M a d d ə 24. **Sərhəd hava gəmisi**

Sərhəd hava gəmisi (sərhəd qoşunlarının aviasiya hissəsinin tərkibinə daxil olan təyyarə, vertolyot və digər uçan aparat) Dövlət sərhədinin bilavasitə mühafizəsinə xidmət edir.

Sərhəd hava gəmisi Azərbaycan Respublikasının hava məkanından istifadə etmək üstünlüyünə, habelə Dövlət sərhədində vəziyyət gərginləşdikdə əvvəlcədən uçuş üçün sifariş vermədən birinci növbədə uçuş hüququna malikdir.

M a d d ə 25. **Əməliyyat-axtarış orqanının bölməsi**

Əməliyyat-axtarış orqanının bölməsi bu Qanunun 5-ci maddəsi ilə müəyyən edilmiş səlahiyyət həddində ona təhkim edilmiş sahədə Dövlət sərhədinin bilavasitə mühafizəsini həyata keçirir.

Əməliyyat-axtarış orqanı bölməsinin rəhbəri ona verilmiş səlahiyyət həddində Dövlət sərhədinin mühafizəsi sahəsində bölməyə həvalə edilmiş vəzifələrin tam və vaxtında yerinə yetirilməsinə görə məsuliyyət daşıyır. [21]

M a d d ə 26. **Sərhəd qoşunlarının sahə müvəkkili**

Sərhəd qoşunlarının sahə müvəkkili və onun köməkçisi sərhəd qoşunlarının hərbi qulluqçuları sırasından təyin edilir və yerli idarəetmə orqanlarına təqdim olunur.

Sərhəd qoşunlarının sahə müvəkkili vətəndaşların köməyi ilə sərhəd rejiminə əməl olunmasına nəzarət edilməsi, aidiyyətinə daxil olan inzibati xətalar haqqında işlər üzrə icraat aparılması, Dövlət sərhədinin mühafizəsi üzrə digər vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar dövlət orqanları, ictimai təşkilatlar, müəssisə və idarələr ilə qarşılıqlı əlaqələrin həyata keçirilməsi üçün təyin edilir. [22]

Sərhəd qoşunlarının sahə müvəkkilinə müəyyən ərazi sahəsi və bu sahədə yerləşən yaşayış məntəqələri təhkim edilir.

Sərhəd qoşunlarının sahə müvəkkili öz vəzifələrini daxili işlər orqanları (orqanların əməkdaşları) ilə qarşılıqlı əlaqədə yerinə yetirir.

Sərhəd qoşunlarının sahə müvəkkili haqqında Əsasnamə sərhəd qoşunlarının komandanı tərəfindən təsdiq olunur.

## III fəsil
## SƏRHƏD QOŞUNLARINDA HƏRBİ XİDMƏT

M a d d ə 27. **Sərhəd qoşunlarının hərbi qulluqçularla komplektləşdirilməsi**

Sərhəd qoşunlarının hərbi qulluqçularla komplektləşdirilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirilir.

Sərhəd qoşunlarında hərbi xidmət keçmək üçün çağırışçılar, sərhəd dəstələri və sərhəd qoşunlarının hərbi hissələri tərəfindən, hərbi komissarlarla birlikdə seçilir. [23]

M a d d ə 28. **Sərhəd qoşunları kadrlarının Hazırlanması**

Sərhəd qoşunlarının zabitləri müvafiq icra hakimiyyəti orqanının məktəblərində və digər ixtisaslaşdırılmış təhsil müəssisələrində hazırlanır. [24]

Gizirlərin, miçmanların, çavuşların və kiçik mütəxəssislərin hazırlanması gizir, miçman məktəblərində və sərhəd qoşunlarının, Azərbaycan Respublikasının nazirlik və idarələrinin tədris mərkəzlərində həyata keçirilir.

M a d d ə 29. **Sərhəd qoşunlarının elmi-peşəkar ehtiyatı**

Sərhəd qoşunlarını yüksək peşəkar səviyyəsində saxlamaq məqsədi ilə elmi və ixtisaslı mütəxəssislər və digər peşəkar hazırlığa malik hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçular sırasından elmi-peşəkar ehtiyat yaradılır.

Elmi-peşəkar ehtiyata daxil edilmiş şəxslərdən sərhəd məsələləri üzrə ekspert, məsləhətçi, komissiya və nümayəndə heyətinin üzvü kimi, habelə sərhəd qoşunları komandanının müəyyən etdiyi digər vəzifələrin yerinə yetirilməsində istifadə edilə bilər.

Sərhəd Qoşunlarının komandanı elmi-peşəkar ehtiyatın sayını və onun saxlanması üçün lazım olan pul vəsaitinin limitini müəyyən edir. [25]

M a d d ə 30. **Sərhəd qoşunlarında hərbi xidmət keçmə**

Sərhəd qoşunlarının hərbi qulluqçuları "hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa və bu Qanuna müvafiq olaraq onların vəzifələrinin xüsusiyyətləri nəzərə alınmaqla hərbi xidmət keçirlər.

Sərhəd qoşunlarının hərbi qulluqçuları sərhəd qoşunlarında təsis edilmiş döş nişanları ilə təltif edilə bilərlər. Döş nişanları haqqında Əsasnaməni Sərhəd Qoşunlarının komandanı təsdiq edir. [26]

M a d d ə 31. **Sərhəd qoşunlarının təhlükəsizliyinin təmin edilməsi**

Sərhəd qoşunları öz təhlükəsizliyini təşkilati, rejim, texniki və digər tədbirləri həyata keçirmək Yolu ilə təmin edir. Sərhəd qoşunlarının əməliyyat orqanları öz təhlükəsizliyini,

habelə əməliyyat-axtarış tədbirlərini həyata keçirmək yolu ilə təmin edir. [27]

Sərhəd qoşunlarında hərbi xidmətə daxil olan və fəaliyyətinin xüsusiyyətinə görə dövlət sirri və ya qanunla xüsusi olaraq qorunan sirr kəsb edən məlumatla işləmək üçün buraxılmalı olan şəxslər bu məlumatı yaymamaq barədə öhdəlik qəbul etməlidirlər. Öhdəliyin pozulması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur. .

Sərhəd qoşunları öz fəaliyyəti barədə ictimaiyyətə məlumat vermək üçün bu məqsədlə onun strukturunda yaradılmış müvafiq xidmət orqanları vasitəsi ilə və ya sərhəd qoşunlarının komandanının müəyyən etdiyi digər qaydada ictimai təşkilatlarla, kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqə yaradır.

Sərhəd qoşunlarının Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məxfilikdən çıxarılan tarixi və elmi əhəmiyyətli materialları Azərbaycan Respublikasının dövlət arxivinə verilir.

M a d d ə 32. **Silah və döyüş texnikasının tətbiqi**

Azərbaycan Respublikasının dövlət sərhədini bilavasitə qoruyarkən sərhəd qoşunlarının hərbi qulluqçuları silah və döyüş texnikası tətbiq edirlər.

Silah və döyüş texnikasının tətbiq edilməsi "Dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

## I V f ə s i l
## SƏRHƏD QOŞUNLARI HƏRBİ QULLUQÇULARININ HÜQUQLARI, VƏZİFƏLƏRİ, TƏMİNATLARI VƏ MƏSULİYYƏTİ

M a d d ə 33. **Sərhəd qoşunları hərbi qulluqçularının hüquqları, vəzifələri, təminatları və məsuliyyəti**

Sərhəd qoşunları hərbi qulluqçularının hüquqları, vəzifələri, təminatları, hərbi qulluqla əlaqədar onların hüquqlarının məhdudlaşdırılması və məsuliyyəti "hərbi qulluqçuların statusu haqqında", "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunları və digər qanunvericilik aktları ilə tənzimlənir. [28]

M a d d ə 34. **Sərhəd qoşunları hərbi qulluqçularının, fəhlə və qulluqçularının hüquqi vəziyyəti**

Dövlət sərhədinin bilavasitə mühafizəsi ilə əlaqədar vəzifələri yerinə yetirərkən sərhəd qoşunlarının hərbi qulluqçuları hakimiyyət nümayəndələri hesab edilirlər. Onların qanuni tələblərinin icrası vətəndaşlar və vəzifəli şəxslər üçün məcburidir. Qanunla səlahiyyət verilmiş şəxslərdən başqa heç kim onların fəaliyyətinə qarışa bilməz. Sərhəd qoşunlarının hərbi qulluqçuları müstəqil olaraq öz səlahiyyətləri daxilində qərarlar qəbul edir və qanunla onlara verilmiş hüquqları həyata keçirirlər.

Dövlət sərhədində bilavasitə xidmət keçən sərhəd qoşunları hərbi qulluqçularının və onların ailə üzvlərinin şəxsi təhlükəsizliyini təmin etmək məqsədi ilə kütləvi informasiya vasitələrində onların xidmət və yaşayış yerləri barəsində məlumat dərc olunması qadağan edilir.

Sərhəd qoşunlarının fəhlə və qulluqçuları həmkarlar ittifaqlarını yaratmaq hüququna malikdirlər.

Sərhəd qoşunlarında siyasi məqsədlər daşıyan təşkilatların fəaliyyəti, onların strukturlarının yaradılması, habelə tətillər təşkil edilməsi və keçirilməsi qadağandır.

M a d d ə 35. **Sərhəd qoşunlarının hərbi qulluqçularının telefonla təmin edilməsi**

Sərhəd qoşunlarının zabitləri, gizirləri (miçmanları) mənzillərinə növbədənkənar telefon çəkilməsi hüququna malikdirlər.

M a d d ə 36. **Sərhəd qoşunlarının hərbi qulluqçuları, fəhlələri və qulluqçuları üçün əlavə güzəştlərin və kompensasiyaların müəyyən edilməsi**

Azərbaycan Respublikasının qanunvericiliyi, müvafiq icra hakimiyyəti orqanlarının və sərhəd qoşunları komandanının qərarları ilə sərhəd qoşunlarının hərbi qulluqçuları, fəhlələri və qulluqçuları üçün onların vəzifə mövqeyi, üzərlərinə düşən vəzifələrin yerinə yetirildiyi şərait, sərhəd qoşunlarına həvalə edilən vəzifələrin yerinə yetirilməsində iştirak etmələri dərəcəsi nəzərə alınmaqla bu Qanunla nəzərdə tutulan güzəştlərdən başqa digər güzəştlər və kompensasiyalar müəyyən edilə bilər. [29]

Sərhəd qoşunlarının müxtəlif əsaslara görə bu və digər güzəşt və kompensasiya hüququna malik olan hərbi qulluqçuları, fəhlələri və qulluqçuları öz arzularına görə yalnız əsaslardan biri üzrə güzəşt və kompensasiya hüququndan istifadə edə bilər.

## V f ə s i l
## SƏRHƏD QOŞUNLARININ MALİYYƏLƏŞDİRİLMƏSİ VƏ MADDİ-TEXNİKİ TƏMİNATI

M a d d ə 37. **Sərhəd qoşunlarının maliyyələşdirilməsi**

Sərhəd qoşunları Azərbaycan Respublikasının Dövlət büdcə sindən , ayrıca maddə ilə maliyyələşdirilir və sərhəd qoşunları üçün yaşayış evlərinin, sosial-mədəni və xüsusi obyektlərin tikintisindən ötrü vəsait ayrıca nəzərdə tutulur.

M a d d ə 38. **Sərhəd qoşunlarının əsas fondları**

Sərhəd dəstələrinin, hərbi hissələrin, bölmələrin, idarələrin, müəssisələrin binaları, qurğuları və digər tikililəri, tədris-maddi baza ilə birlikdə tədris obyektləri, sərhəd gəmiləri (katerləri), sərhəd hava gəmiləri, sərhəd qoşunlarının onların üzərinə düşən vəzifələrin yerinə yetirilməsi üçün istifadə etdikləri tabel əmlakı və vəsaitlər Azərbaycan Respublikasının dövlət mülkiyyətidir və sərhəd qoşunlarının, əsas fondlarını təşkil edir. Əsas fondlara münasibətdə sərhəd qoşunları əməli idarəetmə hüququndan istifadə edirlər. Sərhəd qoşunlarının əsas fondları özəlləşdirilə bilməz.

Sərhəd qoşunlarının yerləşdirilməsi və fəaliyyəti üçün torpaq sahələri, limanlara məxsus su hövzələri onların istifadəsinə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq verilir. Sərhəd qoşunlarının torpaqdan və sudan istifadə etməsinə görə vergi müəyyən edilmir.

Sərhəd qoşunları torpaqdan, hava məkanından, su sahələrindən istifadəni Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq həyata keçirir.

M a d d ə 39. **Sərhəd qoşunları mənzil fondunun xüsusiyyətləri**

Sərhəd qoşunlarının hərbi qulluqçuların Azərbaycan Respublikasının mənzil qanunvericiliyinə, "hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq sərhəd qoşunlarının mənzil fondundan ayrılan mənzil sahəsi ilə təmin edilirlər.

Sərhəd komandanlıqlarına, sərhəd zastavalarına, sərhəd nəzarəti bölmələrinə, Dövlət sərhədinin bilavasitə mühafizəsi üzrə digər orqanlara təhkim edilmiş mənzil fondu xidməti hesab edilir, özəlləşdirilə və dəyişdirilə bilməz.

Sərhəd qoşunları ilə əlaqəsini itirmiş şəxslər hərbi şəhərciklərdən, o cümlədən xidməti mənzillərdən sərhəd qoşunlarının tələbi əsasında köçürülür.

Sərhəd komendantlıqlarında, sərhəd zastavalarında, sərhəd nəzarəti bölmələrində, sərhəd gəmilərində, sərhəd hava gəmilərinin şəxsi heyətində, Dövlət sərhədini mühafizə edən digər orqanlarda hərbi xidmət keçən və xidməti mənzillərdə yaşayan hərbi qulluqçulara mənzil sahəsi, məişət mebeli (müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi siyahıya əsasən), sərhəd qoşunlarının xərclər smetası hesabına verilir və kommunal xidmət göstərilir. [30]

M a d d ə 40. **Sərhəd qoşunlarının maddi-texniki təminatı**

Sərhəd qoşunlarının silah, döyüş texnikası və maddi-texniki təminatı, infrastrukturun yaradılması Azərbaycan Respublikasının maddi ehtiyatları hesabına müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Sərhəd qoşunlarının maddi-texniki təminatı normalarını və qaydasını Sərhəd Qoşunlarının komandanının təklifi əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir. [31]

Sərhəd qoşunlarının silah və texnikasının təmiri sərhəd qoşunlarının, müvafiq icra hakimiyyəti orqanının, o cümlədən Azərbaycan Respublikasının hərbi dəniz qüvvələrinin, Azərbaycan Respublikasının digər nazirlik və idarələrinin təmir müəssisələrində, habelə digər dövlətlərin təmir müəssisələrində həyata keçirilir.

Məhsulun keyfiyyətinə nəzarət etmək və onu qəbul etmək üçün, o cümlədən Azərbaycan Respublikasının müəssisə və təşkilatlarında sərhəd qoşunlarının silah və texnikasının təmirinin keyfiyyətinə nəzarət etmək üçün müvafiq icra hakimiyyəti orqanından nümayəndələr dəvət olunur. [32]

Sərhəd qoşunlarının hərbi hissələrini və bölmələrini yerləşdirmək üçün obyektlərin tikintisi və ya verilməsi Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün müəyyən edilmiş qaydada və normalar üzrə, sərhəd qoşunlarının fəaliyyətinin xüsusiyyətləri nəzərə alınmaqla Azərbaycan Respublikasının Dövlət büdcəsi, Azərbaycan Respublikasının əlaqədar nazirlikləri və idarələrinin vəsaiti hesabına həyata keçirilir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV.**

Bakı şəhəri, 6 yanvar 1994-cü il.
№ 772

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 7 oktyabr 1997-ci il tarixli 378-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 1, maddə 15**)
2. 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57**)
3. 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**)
4. 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**)
5. 17 aprel 2007-ci il tarixli 313-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 560**)
6. 19 oktyabr 2007-ci il tarixli 462-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 11, maddə 1078**)


## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 2-ci maddənin birinci hissəsi yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

> ~~Sərhəd qoşunları haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından, Azərbaycan Respublikası Prezidentinin fərmanlarından, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarından, Azərbaycan Respublikası Dövlət sərhədinin mühafizəsi sahəsində münasibətləri nizama salan beynəlxalq dövlətlərarası müqavilə və sazişlərdən, Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarının normativ aktlarından ibarətdir.~~

[2] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 4-cü maddənin birinci hissəsində 3-cü bənd yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

> ~~xarici dövlətlərin qoşun qruplarının və quldur dəstələrinin Azərbaycan Respublikasının ərazisinə silahlı basqınlarını dəf edir, sərhədboyu zonada əhalini, dövlət mülkiyyətini, vətəndaşların mülkiyyətini həmin silahlı və digər təxribatlardan qoruyur və belə hərəkətlərin qarşısını alır;~~

[3] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 4-cü maddənin birinci hissəsində 6-cı bənd yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

> ~~partlayıcı, zəhərləyici, radioaktiv, narkotik maddələrin, silahın, döyüş sursatının və Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasından aparılması qadağan edilən digər əşyaların, habelə qaçaq malın Dövlət sərhədindən keçirilməsinin qarşısını müəyyən olunmuş qaydada alır;~~

17 aprel 2007-ci il tarixli **313-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 560**) ilə 4-cü maddənin birinci hissəsində 6-cı bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:
~~qanunvericiliklə müəyyən olunmuş qaydada narkotik vasitələrin, psixatrop maddələrin və prekursorların, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın, odlu silah və ya döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən materialların və avadanlıqların, Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasından aparılması qadağan edilən digər əşyaların, habelə Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrindən kənarda əmlakın Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsinin qarşısını alır;~~

[4] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 7-ci bənddə "**sərhədboyu rejimə**" sözlərindən sonra "**(o cümlədən sərhəd sularında)**" sözləri əlavə edilmişdir.

[5] 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57**) ilə 4-cü maddənin birinci hissəsinin 8-ci bəndində "**hüquqpozmalar**" sözü "**xətalar**" sözü ilə əvəz edilmişdir.

5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 4-cü maddənin 8-ci bəndi yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~Dövlət sərhədinin mühafizəsi ilə əlaqədar əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti, Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq dövlət sərhədinin pozulması haqqında işlər üzrə təhqiqat və inzibati xətalar barəsində işlər üzrə icraat aparır, inzibati hüquqpozmalar haqqında işlərə baxır və onlar üzrə qəbul edilmiş qərarları icra edir;~~

[6] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 5-ci maddənin 2-ci bəndi yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~Dövlət sərhədinin pozulması ilə əlaqədar işlər üzrə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə inzibati icraat, təhqiqat aparmaq və lazımi əməliyyat-axtarış tədbirləri görmək;~~

[7] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 5-ci maddənin 12-ci bəndində "**maneəsiz**" sözü "**qanunvericiliklə müəyyən edilmiş qaydada**" sözləri ilə əvəz edilmişdir.

[8] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 6-cı maddə yeni redaksiyada verilmişdir. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~Azərbaycan Respublikasının qanunvericiliyi ilə başqa hal nəzərdə tutulmayıbsa, sərhəd qoşunlarının hüquq və vəzifələri sərhəd qoşunlarının nizamnaməsində və müvafiq dövlət orqanları tərəfindən müəyyən edilən qaydada həyata keçirilir.~~

[9] 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57**) ilə 8-ci maddənin adında və mətnində "**hüquqpozmalar**" sözü "**xətalar**" sözü ilə əvəz edilmişdir.

5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 8-ci maddədə "**sərhədboyu rejimə**" sözlərindən sonra "**(o cümlədən sərhəd sularında)**" sözləri əlavə edilmiş və "**,habelə bu cür işlərə baxır və onlar üzrə çıxarılmış qərarları icra edir**" sözləri çıxarılmışdır.

[10] 7 oktyabr 1997-ci il tarixli 378-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 1, maddə 15**) ilə 11-ci maddənin ikinci hissəsində "**Azərbaycan Respublikasının Ali Soveti**" sözləri "**Azərbaycan Respublikasının Milli Məclisi**" sözləri ilə əvəz edilmişdir.

5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 11-ci maddənin ikinci hissəsində "**Azərbaycan Respublikasının Milli Məclisi**" sözləri "**müvafiq icra hakimiyyəti orqanı**" sözləri ilə əvəz edilmişdir.

[11] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 12-ci maddənin ikinci hissəsi yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~Sərhəd qoşunlarının strukturunu və ştat sayını Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında Azərbaycan Respublikasının Milli Məclisi təsdiq edir.[11] Sərhəd qoşunları hərbi hissələrinin strukturunu və ştat sayını sərhəd qoşunları komandanının təqdimatı əsasında Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri təsdiq edir. Fəhlə və qulluqçuların ştat sayını Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.~~

[12] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 13-cü maddə çıxarılmışdır. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~M a d d ə 13. **Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri**~~

~~Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri:~~

~~1) sərhəd qoşunlarına ümumi rəhbərliyi həyata keçirir və onlara həvalə edilmiş vəzifələrin icrasına nəzarət edir;~~

~~2) sərhəd qoşunlarının fəaliyyətinin təşkili məsələlərinə dair aktlar verir;~~

~~3) sərhəd qoşunları komandanını, qərargah rəisini vəzifəyə təyin etmək və ali zabit rütbəsi vermək üçün Azərbaycan Respublikası Prezidentinə təqdimat verir;~~

~~4) zabitləri ştatla polkovnik, I dərəcəli kapitan rütbəsinədək (bu rütbələr də daxil olmaqla) hərbi rütbə nəzərdə tutulan vəzifələrə təyin (azad) edir və hərbi xidmətdən ehtiyata buraxır, göstərilən rütbələri və ilkin zabit rütbələri verir;~~

~~5) qanunvericilikdə nəzərdə tutulmuş başqa hüquq və vəzifələri həyata keçirir.~~

[13] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 14-cü maddə yeni redaksiyada verilmişdir. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~Sərhəd qoşunları komandanı Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini olmaqla:~~

~~1) sərhəd qoşunlarının bilavasitə idarə olunmasını həyata keçirir və sərhəd qoşunlarına həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə görə məsuliyyət daşıyır;~~

~~2) sərhəd qoşunlarının çağırış üzrə müddətli hərbi xidmət hərbi qulluqçuları ilə komplektləşdirilməsi planının hazırlanmasını təşkil edir, Azərbaycan Respublikası Prezidentinin fərmanları əsasında onları ehtiyata buraxır;~~

~~3) əmrlər, göstərişlər, sərəncamlar verir, təlimatları, əsasnamələri qaydaları və tədris vəsaitlərini təsdiq edir;~~

~~4) sərhəd qoşunlarını təmsil edir;~~

~~5) zabitləri ştatla mayor, III dərəcəli kapitan rütbəsinədək (bu rütbələr də daxil olmaqla) hərbi rütbə nəzərdə tutulan vəzifələrə təyin (azad) edir və onları xidməti qulluq üzrə başqa vəzifələrə keçirir; ilkin zabit rütbəsi, müddətindən əvvəl və növbədənkənar zabit rütbələri istisna olmaqla mayor və III dərəcəli kapitan rütbəsinə qədər (bu rütbələr də daxil olmaqla) zabitlərə vəzifə ştatı üzrə nəzərdə tutulan zabit rütbələri verir;~~

~~6) mayor və III dərəcəli kapitan rütbəsinədək (bu rütbələr də daxil olmaqla) hərbi rütbədə olan zabit heyətini, ştatların ixtisarı istisna olmaqla, həqiqi hərbi xidmətdən ehtiyata buraxır;~~

~~7) hərbi vəzifəli şəxsləri müddətindən artıq xidmət hərbi qulluqçusu, gizir və miçman qismində həqiqi hərbi xidmətə qəbul edir, onlara və müddətli xidmət hərbi qulluqçularına tutduqları vəzifəyə müvafiq olaraq hərbi rütbələr verir, xidmətlə əlaqədar vəzifə yerini dəyişir və onları həqiqi hərbi xidmətdən ehtiyata buraxır;~~

~~8) sərhəd qoşunları baş idarəsinin fəhlə və qulluqçularını əmək qanunvericiliyinə uyğun olaraq işə qəbul (azad) edir;~~

~~9) zabitləri, gizirləri və miçmanları, habelə fəhlə və qulluqçuları müəyyən olunmuş qaydada attestasiyadan keçirir;~~

~~10) batalyonlara, motomanevr qruplarına və digər müvafiq hissələrə və bölmələrə qədər (onlar da daxil olmaqla) hərbi hissələrin ştatlarında mövcud ştat sayı, o cümlədən struktur və əmək haqqı fondu həddində dəyişikliklər edir;~~

~~11) batalyona, motomanevr qrupuna və bunlara bərabər hissələrə qədər (onlar da daxil olmaqla) hərbi hissə və qoşunların tərkibində mövcud ştat sayı, habelə vəzifələrin normativ sayı, o cümlədən komanda (rəis) heyəti həddində bölmələr təşkil edir və ya ləğv edir;~~

~~12) sərhəd qoşunları hissələrinin fəaliyyətinin sənədli təftişi və yoxlanması materiallarını~~

~~öyrənir, həmin materiallar üzrə verilmiş rəyləri təsdiq edir, müqəssir şəxslər barəsində və aşkar edilmiş pozuntuların və nöqsanların aradan qaldırılması üçün tədbirlər görür;~~

~~13) müavinlərinin, Sərhəd Qoşunları Baş İdarəsinin şöbələrinin və digər struktur bölmələrinin rəislərinin səlahiyyətini müəyyən edir.~~

[14] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 15-ci maddə çıxarılmışdır. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~M a d d ə 15. **Sərhəd Qoşunlarının Baş İdarəsi**~~

~~Sərhəd Qoşunlarının Baş İdarəsinə sərhəd qoşunları komandanı başçılıq edir.~~

~~Sərhəd. Qoşunlarının Baş İdarəsi sərhəd qoşunlarının fəaliyyətini təşkil edən mərkəzi orqan olub, Milli Təhlükəsizlik Nazirliyinin müstəqil struktur bölməsidir. Sərhəd Qoşunlarının Baş İdarəsi haqqında Əsasnaməni Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri təsdiq edir.~~

~~Sərhəd Qoşunlarının Baş İdarəsi hüquqi şəxsdir; həqiqi və şərti ada, müvafiq möhür və ştamplara, banklarda hesablara, o cümlədən valyuta hesabına malikdir.~~

[15] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 16-cı maddənin adından və birinci hissəsindən "**İdarəsinin**" sözü və maddənin ikinci hissəsi çıxarılmışdır. İkinci hissənin əvvəlki redaksiyasında deyilirdi:

~~Sərhəd Qoşunları Baş İdarəsi qərargahının rəisi – sərhəd qoşunları komandanının birinci müavini sərhəd qoşunları komandanının təklifi və Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir.~~

[16] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 17-ci maddə çıxarılmışdır. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~M a d d ə 17. **Sərhəd qoşunlarının hərbi şurası**~~

~~Sərhəd Qoşunlarının Baş İdarəsində hərbi şura yaradılır. Hərbi şura Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi "hərbi şura haqqında" Əsasnaməyə müvafiq surətdə fəaliyyət göstərir.~~

~~Hərbi şuranın tərkibinə sərhəd qoşunlarının komandanı – hərbi şuranın sədri, Sərhəd Qoşunları Baş İdarəsinin qərargah rəisi (komandanın birinci müavini), Sərhəd Qoşunları Baş İdarəsinin digər vəzifəli şəxsləri daxildir. Sərhəd qoşunları hərbi şurasının iclaslarında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanının səlahiyyətli nümayəndəsi iştirak edir.~~

[17] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 18-ci maddə çıxarılmışdır. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~M a d d ə 18. **Sərhəd qoşunlarında sərhəd mühafizə orqanları**~~

~~Sərhəd qoşunlarında sərhəd mühafizə orqanları dövlət sərhədinin mühafizəsi ilə əlaqədar əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti, Azərbaycan Respublikasının Cinayət-prosessual məcəlləsində nəzərdə tutulmuş qaydada dövlət sərhədinin pozulması haqqında işlər üzrə təhqiqat aparır.~~

~~Sərhəd mühafizə orqanları sərhəd dəstələrinin, sərhəd nəzarəti hərbi hissələrinin, sərhəd qoşunlarını idarəetmə orqanlarının tərkibinə, onların nümayəndələri isə sərhəd komendantlıqlarının, sərhəd nəzarəti bölmələrinin, hərbi və dəniz hissələrinin tərkibinə daxil edilir.~~

[18] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan

**Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 19-cu maddənin mətnində "**əməliyyat**" sözü "**əməliyyat-axtarış**" sözləri ilə əvəz edilmişdir.

[19] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 22-ci maddənin dördüncü hissəsində "**Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri**" sözləri "**Sərhəd Qoşunlarının komandanı**" sözləri ilə əvəz edilmişdir.

[20] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 23-cü maddənin birinci hissəsindən "**hərbi dəniz hissəsinin**" sözləri çıxarılmışdır.

[21] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 25-ci maddənin adında və mətnində "**əməliyyat**" sözü "**əməliyyat-axtarış**" sözləri ilə əvəz edilmişdir.

[22] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 26-cı maddənin ikinci hissəsində "**hüquqpozmalar barədə**" sözləri "**xətalar haqqında**" sözləri ilə əvəz edilmişdir.

[23] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 27-ci maddənin ikinci hissəsindən "**milli təhlükəsizlik orqanları,**" sözləri çıxarılmışdır.

[24] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 28-ci maddənin birinci hissəsində "**Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin**" sözləri "**müvafiq icra hakimiyyəti orqanlarının**" sözləri ilə əvəz edilmişdir.

[25] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 29-cu maddənin üçüncü hissəsində "**Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri sərhəd qoşunlarının komandanının təqdimatı əsasında**" sözləri "**Sərhəd Qoşunlarının komandanı**" sözləri ilə əvəz edilmişdir.

[26] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 30-cu maddənin ikinci hissəsində "**Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri**" sözləri "**Sərhəd Qoşunlarının komandanı**" sözləri ilə əvəz edilmişdir.

[27] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 31-ci maddənin birinci hissəsindən "**milli təhlükəsizlik orqanları ilə qarşılıqlı əlaqədə**" sözləri çıxarılmış, "**əməliyyat**" sözü "**əməliyyat-axtarış**" sözləri ilə əvəz edilmişdir.

[28] 19 oktyabr 2007-ci il tarixli 462-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 11, maddə 1078**) ilə 33-cü maddəsində **"Hərbi qulluqçuların pensiya təminatı haqqında"** sözləri **"Əmək pensiyaları haqqında"** sözləri ilə əvəz edilmişdir.

[29] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 36-cı maddənin birinci hissəsində "**Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin,**

**Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin**" sözləri "müvafiq **icra hakimiyyəti orqanlarının**" sözləri ilə əvəz edilmişdir.

[30] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 40-cı maddənin birinci hissəsində "**Azərbaycan Respublikasının Nazirlər Kabineti**" sözləri "**müvafiq icra hakimiyyəti orqanı**" sözləri ilə əvəz edilmişdir.

[31] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 40-cı maddənin birinci hissəsində "**Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin**" sözləri "**müvafiq icra hakimiyyəti orqanının**" sözləri, "**Azərbaycan Respublikasının milli təhlükəsizlik nazirinin**" sözləri "**Sərhəd Qoşunlarının komandanının**" sözləri ilə əvəz edilmişdir.

[32] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə 40-cı maddənin ikinci və üçüncü hissələrində "**Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin**" və "**Azərbaycan Respublikasının Müdafiə Nazirliyindən**" sözləri müvafiq olaraq "**müvafiq icra hakimiyyəti orqanının**", və "**müvafiq icra hakimiyyəti orqanından**" sözləri "**müvafiq icra hakimiyyəti orqanının**" sözləri ilə əvəz edilmişdir.